# İncə qəlbli İncəli



**Şair, jurnalist, publisist Əleddin İnceli 1930-cu il may ayının 20-de Qazax mahalının İnce deresinin Kemerli kendinde anadan olmuşdur. 1947-ci ilde orta mektebi, 1951-ci ilde Azerbaycan Dövlet Pedaqoji İnstitutunun dil-edebiyyat fakültesini bitirib.**

**Ələddin İncəli- 80**

O 3 il Qarabağda- Manikli (Ağdərə rayonu) kənd orta məktəbində tədris hissə müdiri işlədikdən sonra öz doğma rayonuna qayıtmış, 1954-cü ildən həyatını mətbuata bağlamışdır. 45 il Qazaxda çıxan "Qalibiyyət bayrağı" (indiki Göyəzən) qəzetində ədəbi işçi, şöbə müdiri, məsul katib, redaktor müavini, təhsil şöbəsində metodist, kino birliyində direktor, teatrda ədəbi hissə müdiri vəzifəsində çalışmışdır.

Ələddin İncəli harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq ədəbi yaradıcılıqla müntəzəm məşğul olmuşdur.

Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Ələddin İncəli "Seyran" (1970), "Gəl Kür qırağına" (1980), "Əlvida XX əsr" (2001), "Salam üçüncü minillik" (2002), "Ömür istə", "Ömür yolları" (2004), "Mərdi-mərdanə" (2008), "Babam buyurdu: Qoru bu yurdu!" (2009) şeir kitabları çap olunmuşdur.

Ə.İncəlinin çoxlu sayda bayatıları, gəraylıları, qoşmaları, təcnisləri, müxəmməsləri, qəzəlləri, divanləri vardır. Dərc olunmuş şeirləri şairin yaradıcılığının beşdə birini təşkil edir. O, bir neçə mənzum dramın və pyeslərin müəllifidir. Axı, Ələddin müəllim 60 ildir yazıb-yaradır, ədəbiyyatımızın inkişafı naminə gecə-gündüz çalışır. Şeirləri incilərdən incilənmiş, incəgüllü, kövrək ruhlu, dadlı-duzlu şeirlər müəllifi olan Ələddin İncəli təbiət vurğunu, məhəbbət aşiqi və gözəllik şairidir.

***Sən elə get-gedə soyudun, gülüm,***
***Payızda soyuyan havalar kimi.***
***Sənsiz buz bağladı, üşüdü könlüm,***
***Budaqda boş qalan yuvalar kimi.***

və yaxud:

***- O gül dodaqlara toxunmasaydı,***
***Sözlərin olmazdı heç belə gözəl.***
***Qəlbin gözlərindən oxunmasaydı,***
***Gözlərin olmazdı heç belə gözəl!..***

Ələddin İncəli ziyalı, mədəni, alicənab, xeyirxah, səmimi və mehriban bir insandır. Yaradıcılığa başladığı ilk gündən ədəbiyyatımızın saflığını əsl vətəndaş- şair kimi qorumuş, istedadlı gənclərə həmişə qayğı və diqqət göstərmiş, onların püxtələşməsində müstəsna xidmətlər göstərmişdir. Ə.İncəli bulağından su içən şairlərin çoxu hazırda respublika miqyasında tanınmışdır.

Ələddin İncəli incə təbli, gözəl şair olmaqla yanaşı, nümunəvi ailə başçısıdır, müdrik el ağsaqqalıdır. Ustad şair kimi o, Qazax ədəbi mühitinə ağsaqqallıq edir. Xeyirdə- şərdə, toyda, yasda həmişə xalqın arasında olur. Ələddin İncəli məhsuldar şairdir. İlhamı bulaq kimi çağlayır. Onun poeziyası forma və məzmun kamilliyi ilə diqqəti özünə çəkir. Regionda yaşasa da Azərbaycanı, bütün türk dünyasını düşünür, türkçülüyü təbliğ edən şeirlər yazır, çox fəxrlə "Mən türkəm!" - deyir.

AMEA-nın müxbir üzvü, professor, əməkdar elm xadimi, millət vəkili, çox hörmətli Nizami Cəfərov Ələddin İncəli yaradıcılığına yüksək qiymət vermişdir. N.Cəfərov çox haqlı olaraq yazır ki, Ələddin İncəlini oxumaqla Qazax mahalının mənəvi simasını görmək, təsəvvür eləmək mümkündür.

Şair bunları bütün genişliyi və əhatəliliyilə əks etdirir. Ə.İncəli ədəbiyyata, poeziyaya təsadüfən gəlməmişdir və o böyük bir mənəvi poetik irsin varisi kimi çıxış edir. Xüsusilə də onun Səməd Vurğun üslubuna sədaqəti, Səməd Vurğun mövzularına müraciət etməsi onun geniş nəfəsli bir şair kimi ortaya çıxdığını göstərir.

***Yanı gah balalı, gah təkəlidi,***
***Qorxaqdı, ürkəkdi, səksəkəlidi...***
***Gözəllik özü də təhlükəlidi,***
***Odur ki, tez tapır bəla ceyranı!..***

Sənət peyğəmbərimiz, qüdrətli söz ustası böyük Səməd Vurğundan sonra "Ceyran" şeirini yazmaq hər şairdən qüdrət və cəsarət tələb edir. Ə.İncəlinin "Ceyran" şeiri olduqca orijinaldır, bənzətmələrlə yadda qalandır.

Ələddin İncəli poeziyası ulu sazdan, müqəddəs sözdən, ustadlardan mayalanıb, xalq ədəbiyyatından qaynaqlanıb. Onun poeziyası nurlu və işıqlı poeziyadır.

***Keçməsən bu yurdun dağ-dərəsindən,***
***Baxmasan ürəyin pəncərəsindən,***
***Ay Ələddin, söz də öz bərəsindən,***
***Yayınız ceyran tək düzə tapılmır.***

Ə.İncəli məhz ürəyinin pəncərəsindən baxa bilən şair olduğu üçün özü də, sözü də, şeriyyəti də işıqlıdır, mənalı-məzmunlu, oxunaqlı, oxucuların qəlbinə yol tapandır.

Şairə böyük el sevgisi, məhəbbəti onun gözükönlü tox olmasından, ürək genişliyindən, saflığından, təmizliyindən, şəxsiyyətindən, mədəniyyətindən, qabiliyyətindən, sonra da ilahi şeriyyətindən irəli gəlir.

Müdrik el ağsaqqalı, nurani, pirani, ixtiyar yaşlı şair Ələddin İncəli qəlbinin incə telləriylə İncə dərəsinə bağlıdır. O yenə də yazıb- yaradır, öz örnəkləri ilə ədəbiyyat xəzinəmizi zənginləşdirir.

Ömrün 80-ci baharını yaşayan Ələddin İncəli hazırda Kəmərli kəndində yaşayır. Ələddin müəllimin şəhərdən kəndə köçməsinin əsas səbəblərindən biri mənfur ermənilərlə gedən müharibə oldu.

Axı, bizim İncə dərəsi Ermənistanla təmas nöqtəsində yerləşir. O vaxtlar kənd sakinlərinin köçmək təhlükəsi vardı. Belə çətin vaxtlarda Ələddin müəllim öz ürəyinin hökmü ilə yığışıb ata-baba yurduna, doğmalarının, eloğlularının yanına döndü, onlara ürək-dirək verdi, vətənpərvərlik ruhunda çıxışlar etdi, şeirlər oxudu, onları yaşamağa ruhlandırdı.

***Düşmən diş qıcayıb bizə illərlə,***
***Amma qorumuşuq yurdu hünərlə,***
***Döyüşək davakar yadellilərlə,***
***Döyüşdə hər ərən şir-aslan olsun.***

Şair Ələddin İncəlinin çoxillik fəaliyyəti dövründə "Əmək rəşadətinə görə", "Əməkdə fərqlənməyə görə", "Əmək veteranı"medallarıyla, fəxri-fərmanlarla, diplomlarla və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

**Şair-jurnalist Ələddin İncəlini anadan olmasının 80, yaradıcılığının 60 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, yubilyara uzun ömür, can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.**

● Kazım KAZIMLI,
*şair-jurnalist*

18400
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası